### *BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu:*

# Azərbaycan multikulturalizmi dünyada mütərəqqi model kimi qəbul olunur

**Müstəqillik hər bir dövlət, xalq üçün əziz nemətdir. Müstəqillik özünü, varlığını qoruyub saxlamaq, dünyaya öz sözünü deməkdir. Dövlət müstəqilliyinin bərpasının 25-ci ilini qeyd edən Azərbaycan da çox qısa müddət ərzində etibarlı tərəfdaş, regional inkişafa, təhlükəsizliyə, sabitliyə və multikulturalizmə töhfə verən ölkə olduğunu təsdiqləyə bilmişdir. Bu gün Azərbaycan Respublikası həm insan hüquqlarının yüksək səviyyədə qorunduğu, həm tolerantlığın həyat normasına çevrildiyi, həm də milli-mənəvi dəyərlərə böyük önəm verildiyi unikal ölkələrdəndir.**

**Bu gün dünyanın mənzərəsi necədir: özünü demokratiyanın, insan hüquqlarının "qoruyucusu" hesab edən Avropa qitəsində mühacirlərə qarşı qeyri-tolerant münasibət göstərilir və bu qəbuledilməz hal geniş yayılmaqdadır. Tez-tez multimədəniyyət cəmiyyətinin baş tutmaması ilə bağlı bəyanatlar səsləndirilir. Azərbaycan isə müxtəlif millətlərin və dini konfessiyaların dinc, yanaşı mövcudluğunun mümkünlüyünü sübut edir, bütün dünyaya multikulturalizmin Azərbaycan modelinin uğurlu, mütərəqqi bir model olduğunu nümayiş etdirir. Bununla da dünyaya gərəkli vacib məsələnin həlli yolunda bir nümunəyə çevrilir.**

### Fərqli din və mədəniyyətə hörmət

Tarixi çox qədim olan Bakının inkişafı XIX əsrin ikinci yarısından, 70-ci illərdən başlayır. Həmin dövrlərdə memarlıq da sürətlə inkişaf edir, milyonçular bir-birinin bəhsinə möhtəşəm binalar tikdirirdilər. Az müddətdə Bakıda bir neçə əzəmətli məbəd-məscid və kilsə tikilmişdi...

"III Aleksandr Bakıda möhtəşəm kilsə tikmək üçün pul ayırır və şərt qoyur ki, o, əzəmətli və yaraşıqlı olsun. Novı-Afon kilsəsinə oxşar, lakin ondan daha üstün bir məbəd tikmək qərara alınır. Akademik Marfeld baş memar təyin edilir. Novı-Afondan çertyojların surəti gətirilir. 1888-ci ildə təməlqoyma mərasimində çar III Aleksandr özü şəxsən iştirak edir. Qısa müddətdə şəhərin mərkəzində "Qızıllı", yaxud "Aleksandro-Nevski" kilsəsi ucaldılır. Layihə tamam olanda buraxılan məbləğin azlığı bəlli olur. İanə toplamağa başlayırlar. Toplanan 200.000 manat ianənin 150.000 manatını müsəlmanlar ödəyir. Kilsə zənglərinin daha möhtəşəm, xoş və daha cingiltili çıxması üçün zəngin hazırlandığı tuncun tərkibinə gümüş və qızıl qarışdırmaq lazım olur və bu məqsədlə əhalidən qızıl-gümüş toplanır. İanənin əsas hissəsini müsəlmanlar ödəyib birinci yeri tuturlar..."

Yazıçı Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim..."—kitabından götürülmüş, bu nümunədə başqa dinə, məzhəbə hörmət açıq duyulur və artıq şərhə ehtiyac qalmır.

Bu dəyərlərə böyük önəm verən ulu öndərimiz Heydər Əliyev respublikaya rəhbərliyinin bütün dövrlərində Azərbaycanı multikulturalizmin, tolerantlığın məkanı kimi tanıtmağa çalışmışdır. Müstəqilliyimizin ilk illərində təkrar hakimiyyətə qayıdışı ilə cəmiyyətimizdə milli birlik təmin edildi, dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs ümummilli liderin özünəməxsus müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası ətrafında bir araya gəldi. Milli-mənəvi dəyərlərimizin qorunması yönündə mühüm işlər görüldü, insanların din və etiqad azadlığının sağlam əsasda inkişafı təmin edildi.

Ulu öndərin ölkəmizdə mövcud din, tolerantlıq və multikulturalizm mühitinin daha da gücləndirilməsi ilə bağlı siyasəti dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycanın nümunəsi göstərir ki, multikulturalizm yaşayır"—deyən Prezident İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda səsləndirdiyi: "Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir" fikirləri də ölkə rəhbərinin multikulturalizmə böyük önəm verdiyinin göstəricisidir. 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması da dövlətimizin multikulturalizm siyasətinə önəm verməsini bir daha təsdiqləyir.

### Azərbaycan təcrübəsi təqdir olunur

Azərbaycan ta qədimdən müxtəlif etnosların və dini icmaların dinc yanaşı yaşamalarının unikal nümunəsidir. Respublikamızın bu sahədə əldə etdiyi təcrübə dünya tərəfindən yüksək qiymətləndirilir. Vaxtilə Almaniyanın burada səfiri olan Klaus Qrevlik hələ 2004-cü ilin iyununda Bakıda keçirilən tolerantlığa dair seminarda demişdir: "Yaratdığı dövlət-din münasibətləri modelini Azərbaycanın artıq ixrac etməsi mümkündür. Bu, sizin sərvətinizdir. 2008-ci ilin mart ayında Bakıda rəsmi səfərdə olan Vatikanın dövlət katibi Kardinal Qarqizio isə ölkəmizdəki mövcud tolerantlığa belə qiymət vermişdir: "Azərbaycanda tolerantlıq onun xalqının nailiyyətidir. Mən Azərbaycanda qardaşlıq münasibəti gördüm və başa düşdüm ki, bu, burada yaşayan xalqın ənənəsidir".

Ölkəmizdə tolerantlıq ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən qurumlardan biri Heydər Əliyev Fondudur. Fondun həyata keçirdiyi "Tolerantlığın ünvanı—Azərbaycan" layihəsi çərçivəsində Bakıdakı pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış, "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmiş, Binə qəsəbəsindəki "Möhsün Səlim", Gəncə şəhərindəki "Həzrəti Zeynəb" məscidləri əsaslı təmir edilərək yenidən qurulmuş, Bakıdakı "Müqəddəs Məryəm" kilsəsində bir sıra işlər görülmüş, "Vatikan" kilsəsində katakombalar təmir olunmuşdur.

Azərbaycanın birinci xanımının səyləri nəticəsində görülən işlər, həyata keçirilən layihələr ölkəmizin dünya birliyində zəngin mədəniyyətə, qədim tarixə, tolerantlıq ənənələrinə malik bir dövlət kimi özünəməxsus yer tutması baxımından böyük əhəmiyyət kəsb edir.

Bu gün bütün dünyanın böyük din xadimləri özünü artıq tolerantlığın ideoloji mərkəzi və praktik təcəssümü kimi təsdiq edən Bakıda toplaşır, dinlərin dialoqu çərçivəsində, həm də sivilizasiyaların qarşılıqlı anlaşması istiqamətində səmərəli iş aparırlar. Multikulturalizmin beynəlxalq arenada təsdiq və təbliğinə Azərbaycan dövləti tərəfindən hələ 2008-ci ildə başlanılıb. Həmin ildə Prezidentin təşəbbüsü ilə Avropa İttifaqına üzv ölkələrin mədəniyyət nazirlərinin, 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin mədəniyyət nazirlərinin toplantısı keçirilmiş, bununla da dünya siyasətçilərinin adlandırdığı kimi "Bakı Prosesi" başlanmış və bu da Bakıda mədəniyyətlərarası dialoqların keçirilməsinə təkan vermişdir. Bu mənada Mədəniyyət Nazirliyinin xətti ilə istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda həyata keçirilən layihələr, tədbirlər, xüsusi qeyd olunmalıdır.

### Azərbaycan multikulturalizmi mütərəqqi modeldir

2016-cı ilin aprelində Bakı daha bir mötəbər tədbirə ev sahibliyi etdi. Belə ki, aprelin 25-27-də BMT-nin Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd" devizi altında keçirilən VII Qlobal Forumu mədəniyyətlər və sivilizasiyalar arasında, eləcə də sivilizasiyalar daxilində dialoq və anlaşmanın gücləndirilməsinə əsaslı töhfələr verdi. Forumun açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: "BMT-nin Sivilizasiyalar Alyansının VII Qlbal Forumuna Bakının ev sahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə mailkdir".

Forumda qəbul edilən Bakı Bəyannaməsində müasir dövrdə cəmiyyətlərdə artan müxtəlifliyin fonunda inklüziv birgəyaşayışa qarşı artan təhdidlərin qarşısının alınması və irəliləyişin müəyyən edilməsi nöqteyi-nəzərindən müxtəlif dairələrin fərqli baxışlarının bir araya gətirilməsi baxımından Azərbaycanın rolu təqdir olundu.

Forumun Təşkilat Komitəsinin rəhbəri, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Bakı Bəyannaməsi barədə danışarkən bu siyasi sənədin ölkəmizin gələcəkdə bir sıra mühüm layihələri reallaşdırmasına təkan verəcəyini deyərək qeyd edib ki, "Bakı Prosesi" artıq qlobal status alıb və bu istiqamətdə işlər davam etdiriləcək. Azərbaycan 2017-ci ildə IV Ümumdünya Mədəniyyətlərarası Qlobal Forumuna da ev sahibliyi etmək hüququ qazanıb, bu forum isə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun nəticələrini müzakirə etmək üçün platforma olacaq.

İnsanları birliyə, birgəyaşayışa, islam və xristian aləmini sülhə səsləyən Bakı Forumunu bu mənada ən gözəl proses kimi dəyərləndirən xarici ölkə nümayəndələri Azərbaycanın sivilizasiyalar arasında körpü rolunu oynadığını, Bakının sülh və dialoq şəhəri olduğunu da xüsusilə qeyd edirlər.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir forum çərçivəsində "Bakı Prosesi: Qlobal mədəniyyətlərarası dialoq üçün yeni çağırışlara cavab" mövzusunda-kı bölmə iclasında çıxış edərkən coğrafi mövqeyinə və etnik tərkibinə görə mədəni müxtəlifliyə malik olan Azərbaycanda multikulturalizmin dövlət siyasəti kimi qəbul edildiyini, eyni zamanda inklüziv cəmiyyət kimi, Azərbaycan modelinin örnək kimi götürməyin mümkünlüyünü də vurğulayıb.

Dinlərarası və interkonfessional dərketmə mərkəzinin təsisçisi Taras Dzubanski onunla eyni fikri paylaşaraq deyib: "Azərbaycanın təqdim etdiyi multikulturalizm modeli fərqli dinlərin və millətlərin nümayəndələrinə yüksək ali dəyərlərə söykənən münasibəti bu gün dünyada sabitliyi təhdid edən ünsürlərin artdığı bir vaxtda çox əhəmiyyətli olması ilə bərabər, dünya ölkələrinə gözəl bir örnəkdir."

Rusiya İctimai Palatasının üzvü Sergey Markovun fikrincə, Azərbaycan, müasir dünyəvi cəmiyyətdə xristian və müsəlmanların qarşılıqlı fəaliyyətinin gözəl nümunəsidir. Bakı çoxmədəniyyətli cəmiyyət yaradılması sahəsində öz təcrübəsini bütün dünyaya göstərmək istəyir.

Bəli, ölkə başçısı tərəfindən başlanğıcı qoyulan dövlət siyasəti bu gün prioritet səviyyəyə yüksəlmiş, multikulturalizmlə bağlı həyata keçirilən tədbirlər ölkəmizə mədəniyyətlərarası dialoq ölkəsi statusu qazandırmışdır. BMT kimi nüfuzlu bir təşkilatın Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi də ölkəmizin dünyada artan nüfuzundan xəbər verir. Forum dünyaya mesaj olaraq çatdırdı ki, mədəni müxtəliflik bütün ölkələrdə qorunub saxlanmalıdır. Azərbaycan bunun ən yaxşı nümunəsidir. Çünki hamının bizim vahid evimiz olan Yer kürəsində dinc, firavan yaşamaq hüququ var.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

*Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

"BARABANK" ASC-nin səhmdarlarının ... Xəzər rayonu, Mərdəkan bağ massivi